

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 156 (21.057)

19 avqust 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 avqust tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən əldə etdikləri yüksək nailiyyətlərə görə və Dövlət Sərhəd Xidməti əməkdaşlarının peşə bayramı günü münasibətilə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bir qrup əməkdaşı təltif edilmişdir. "Naxçıvan" Sərhəd Diviziyasının əməkdaşı mayor Canməmmədov Ramin Ramiz oğlu **"Hərbi xidmətlərə görə" medalı ilə** təltif olunmuşdur.

## İməciliklərdə meyvə bağlarına və yaşıllıqlara qulluq göstərilmişdir

Muxtar respublikamızın bütün bölgələrində yaşıllaşdırma işləri geniş vüsət almışdır. Hər il yeni meyvə bağları, meşə zolaqları salınır, təbiətin zənginləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Havaların isti keçdiyi bu günlərdə isə meyvə bağlarına və yaşıllıq zolaqlarına aqrotexniki qaydada qulluq göstərmək, ağacları vaxtlı-vaxtında suvarmaq mühüm əhəmiyyət daşıyır.

Avqustun 16-da muxtar respublikada ictimaiyyətin nümayəndələri, idarə, müəssisə və təşkilatların kollektivləri iməciliyə çıxmış, ötən iməciliklər dövründə salınmış yaşıllıq zolaqlarına qulluq göstərmişlər.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin ətrafında keçirilən iməcilikdə iştirak etmişlər.

Beş hektarlıq ərazidə payız və yaz əkini mövsümündə yerli şəraitə uyğun 6 mindən artıq meyvə tingi əkilmişdir. İməcilikdə ərazi suvarılmış, ağaclara qulluq göstərilmiş, təmizlik işləri aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, isti yay günlərində suvarma tədbirlərinin davam etdirilməsi və becərmə işlərinin aparılması barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycan dünya birliyi tərəfindən multikulturalizm baxımından güclü ənənələrə və potensiala malik bir ölkədir



*Avqustun 18-də Naxçıvan Şəhər İcra Hakimiyyətində Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayevin muxtar respublika ictimaiyyətinin nümayəndələri ilə görüşü keçirilib.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda dini və milli tolerantlılığın yüksək səviyyədə olduğunu bildirib. Qeyd edilib ki, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan Respublikasının tarixinin böyük mərhələsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ictimai-siyasi həyatın bütün sahələrində, o cümlədən dini etiqad azadlığının təminatında, dini-mənəvi dəyərlərin qorunmasında, tolerantlılığın inkişafında müstəsna xidmətlər göstərib. Bu gün ümummilli liderin siyasi xətti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bu məsələlər barədə öz fikirlərini bildirən Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev deyib ki, tarixinin silinməz və möhtəşəm səhifələrindən birini yazan müstəqil Azərbaycan Respublikası hər zaman müxtəlif xalqlara, millətlərə və dinlərə mənsub insanların birgə yaşadığı ölkə olub. Bu gün də respublikamız mədəniyyətlərin qovuşduğu məkan kimi bütün dünyada şöhrət qazanmaqdadır. Bunun nəticəsidir ki, beynəlxalq ictimaiyyət bu gün "sivilizasiyalararası dialoqun Azərbaycan modeli" üzərində ciddi diskussiyalar aparır, bu məsələdə xalqımızın adət-ənənələrindən irəli gələn yüksək dəyərlərin öyrənilməsi və onun tətbiq olunması məsələsinin elmi şəkildə araşdırılmasının əhəmiyyətini vurğulayır.

Dövlət müşaviri qeyd edib ki, müasir dövrümüzdə sivilizasiyalararası dialoq, multikulturalizm dünyada sabitliyin qorunması, cəmiyyətlərin inkişafı və münaqişələrin qarşısının alınması baxımından çox əhəmiyyətlidir. Azərbaycan bu baxımdan güclü ənənələrə, potensiala və əzmə malik bir ölkə kimi dəyərləndirilməkdədir.

Bildirilib ki, bu gün Azərbaycanda 2 minədək məscid, 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan xalqı özünün tolerantlılığı, dözümlülüyü ilə, Azərbaycan Respublikası isə həyata keçirdiyi humanist siyasəti, müxtəlif millətlərə və dinlərə mənsub insanlara göstərdiyi diqqət və qayğısı, tarixi abidələrə hörmət və ehtiramı ilə dünyaya nümunədir.

"Ölkəmiz sivilizasiyalararası dialoq məsələsində özünün tarixi missiyasını uğurla davam etdirir", – deyən Kamal Abdullayev əlavə edib ki, bununla bağlı dünyada böyük nüfuza malik olan siyasət, elm, din xadimlərinin, tanınmış beynəlxalq ekspertlərin iştirakı ilə ölkə paytaxtı Bakı şəhərində əhəmiyyətli beynəlxalq tədbirlər keçirilir, qlobal miqyaslı məsələlərə dair ciddi müzakirələr aparılır, başəriyyətin bu gününü və gələcəyini maraqlandıran önəmli nəticələr əldə olunur. Biz bütün dünyanı humanizm dəyərlərinə sədaqətli olmağa səsləyirik. Azərbaycanda keçirilən beynəlxalq tədbirlərin məqsədi də budur.

Sonda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev tədbirə yekun vurub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Mirhəşim Seyidov iştirak edib.

## Gizirlərin və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının buraxılış mərasimi keçirilib



*Avqustun 16-da Əlahiddə Ümumqoşun Ordusunun Təlim-Tədris Mərkəzində ixtisas kursunu başa vurmuş gizirlərin və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının buraxılış mərasimi keçirilib.*

Mərasimdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edib. Bildirilib ki, ölkəmizdə milli ordu quruculuğu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə ordu quruculuğuna başlayan ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra bu sahədə mühüm addımlar atılıb. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycanda Milli Ordunun gücləndirilməsi prosesi xeyli sürətləndirilib. Həyata keçirilən tədbirlər nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatı yaxşılaşdırılıb, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılıb. Qeyd olunub ki, ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. 2013-cü ilin dekabr ayında Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun yaradılması, bu ordunun maddi-texniki bazasının müasir tələblər səviyyəsində qurulması, kadr hazırlığı istiqamətində atılan uğurlu addımlar muxtar respublikanın etibarlı mühafizəsini təşkil etmək üçün daha geniş imkanlar açıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində hərbi hissələrdə xidmət üçün hərtərəfli şərait yaradılıb, onlarla yeni binalar – əsgəri-məişət kompleksləri, müxtəliftəyinatlı obyektlər tikilib istifadəyə verilib. Bütün bu tədbirlər ordumuzu regionda ən güclü hərbi birliyə çevirib.

Vurğulanıb ki, bu gün ixtisas kursunu tam başa vurmuş gizirlər və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kurs dövrü müxtəlif ixtisaslar üzrə bilik və bacarıqlara yiyələniblər. Onlar müxtəlif hərbi hissələrdə öz xidmətlərini layiqincə davam etdirəcəklər. Ordu komandanı məzunlara xidmətlərində uğurlar arzulayıb.

Məzunlar adından çıxış edən gizir Bəhruz Məmmədov və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Elnur Seyidov Vətənə şərəflə xidmət edəcəklərinə söz veriblər.

Valideyn Əyyar Əsgərov isə məzunlara xoş arzularını çatdırıb, övladının hərbçi olmasından böyük qürur hissi duyduğunu deyib.

Sonra məzunlara ixtisas hazırlığı kursu bitirmələri haqda sertifikatlar təqdim edilib.

Sonda məzunların tribuna önündən təntənəli keçidi olub.

*Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Xalid Usman Qayser Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində avqustun 15-də Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini ziyarət etmişdir. Burada səfirə ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti haqqında geniş məlumat verilmiş, eksponatlara baxış olmuşdur. Məlumat verilmişdir ki, 1999-cu il mayın 10-da fəaliyyətə başlamış muzeyin fondunda ümummilli liderin həyat və fəaliyyətini özündə əks etdirən 4536 eksponat toplanmışdır.*

## Pakistanlı səfir təhsil və sənaye müəssisələrində olmuş, muxtar respublikadakı tarixi yerləri ziyarət etmişdir



Sonra Duzdağ Fizioterapiya Mərkəzinə gələn səfirə Duzdağın unikal müalicəvi əhəmiyyəti haqqında məlumat verilmişdir.

Avqustun 16-da Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Xalid Usman Qayser Naxçıvan Dövlət Universitetində olmuş, tədris korpusları, Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri muzeyini və onlayn mühazirə otaqlarını gəzmiş, ali təhsil ocağında xarici dillərin tədrisi vəziyyəti, kimya laboratoriyalarının müasir iş prinsipi ilə tanış olmuşdur.

Həmin gün pakistanlı diplomat Naxçıvan Biznes Mərkəzində də olmuşdur. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidov muxtar respublikanın iqtisadi inkişafının müasir vəziyyəti haqqında səfirə məlumat vermiş, region iqtisadiyyatının müxtəlif sahələrində qazanılmış nailiyyətlərdən bəhs etmişdir.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən səfir bir daha Naxçıvan Muxtar Respublikasına səfərindən məmnun qaldığını ifadə etmişdir.

Sonra səfir muxtar respublikanın iri sənaye müəssisələrindən olan "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal prosesi ilə maraqlanmışdır.

Həmin gün səfir "Naxçıvan Avtomobil Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinə gələrək burada istehsal olunan avtomobillərə baxmışdır. Bildirilmişdir ki, illik istehsal gücü 5 min ədəd avtomobil olan Naxçıvan Avtomobil Zavodunda 9 modeldə avtomobil istehsal olunur.

Günün sonunda səfir Naxçıvan şəhərindəki Əyləncə və İstirahət Mərkəzi ilə tanış olmuşdur.

Avqustun 17-də Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Xalid Usman Qayser "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksini ziyarət etmiş, Əlincəçay xanəgahı ilə tanış olmuşdur. Günün ikinci yarısında isə səfir Naxçıvan şəhərində Nuh Peyğəmbərin məzarüstü türbəsi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Xalça Muzeyi, "Came" məscidi, Açıq Səma Altında Muzey, Möminə xatın türbəsi və "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində də olmuşdur.

Dünən səfir Xalid Usman Qayserin Naxçıvana səfəri başa çatmışdır.

**Xəbərlər şöbəsi**

# Ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində ciddi addımlar atılır

***Ölkəmizdə, eləcə də muxtar respublikamızda makroiqtisadi sabitliyin qorunub saxlanması, ərzaq təhlükəsizliyinin təminatı, daxili bazarın idxaldan asılılığının aradan qaldırılması, yerli istehsalın inkişafı məqsədyönlü siyasətin əsas istiqamətlərindəndir. Bu gün ümumi sosial-iqtisadi yüksəliş kənd təsərrüfatının xüsusi çəkisini davamlı surətdə artırmaqdadır. Kənd təsərrüfatı sahəsinə dövlətin qayğısının artırılması, aqrolizinq xidmətinin genişləndirilməsi, eləcə də kreditlərin verilməsinin sürətləndirilməsi aqrar sahənin inkişafına öz müsbət təsirini göstərib.***

Məlum olduğu kimi, etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Məhz bu amil cəmiyyətin hər bir üzvünün əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsini zəruri edir. Xüsusilə son bir neçə ildə enerji daşıyıcılarının qiymətinin kəskin artması, aparıcı ölkələrin maliyyə bazarında baş verən neqativ meyillər, habelə əhalinin sayının çoxalması nəticəsində ərzaq məhsullarına olan tələbatın yüksəlməsi, iqlim dəyişkənliyi, su ehtiyatlarının məhdudluğu və digər bu kimi hallar bəzi ölkələrdə ərzaq qıtlığını real təhlükəyə çevirib. Bu baxımdan muxtar respublikada əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir.

Ümumiyyətlə, artan inkişaf göstəriciləri arasında kənd təsərrüfatının xüsusi çəkisinin olması təsadüfi deyil. Muxtar respublikada ərzağa olan daxili tələbatın, əsasən, öz yerli istehsal hesabına ödənilməsi üçün istehsal sahələrinin yaradılması və kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində mühüm islahatlar həyata keçirilir və bu proses davam etdirilməkdədir.

Qeyd edək ki, muxtar respublikamızda cari ilin birinci yarısında sözügedən sahədə artım 6,4 faiz təşkil edib. Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin məhsulu üçün 60 min 829 hektar sahədə əkin aparılıb. Ümumi əkin sahəsinin 38 min 908,7 hektarını dənli və dənli-paxlalı bitkilər (qarğıdalı ilə birlikdə), 2962 hektarını kartof, 6125 hektarını tərəvəz, 2744 hektarını bostan bitkiləri, 264 hektarını texniki bitkilər, 9825,3 hektarını isə yem bitkiləri təşkil edir.

Kənd təsərrüfatı sahəsinin heyvandarlıq məhsulları bölməsində bəhs olunan dövrdə diri çəkidə ət istehsalı 2,3 faiz artaraq 10 min 500,8 tona, süd istehsalı 0,5 faiz artaraq 45 min 754,5 tona, yumurta istehsalı 0,1 faiz artaraq 43 milyon 675 min 900 ədədə çatıb, ötən ildəkindən 1,5 faiz çox və ya 790,1 ton yun istehsal edilib.

2013-cü ilin müvafiq dövrü ilə müqayisədə bitkiçilik məhsulları istehsalı 8,7 faiz, heyvandarlıq məhsulları istehsalı 4,3 faiz artıb.

Ümumiyyətlə, ərzaq təhlükəsizliyi müəyyən keyfiyyət standartları çərçivəsində əhalinin qida məhsullarına olan tələbatının fasiləsiz, uzunmüddətli və dayanıqlı şəkildə ödənilməsini təmin edən tədbirlər kompleksidir. Həyata keçirilən sosial-iqtisadi inkişaf proqramları, habelə "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" çərçivəsində görülən işlər bu sahənin inkişafında mühüm rol oynayıb. Dövlət proqramında ərzaq məhsullarının istehsalının artırılması, əhalinin təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi, sahibkarlıq mühitinin yaxşılaşdırılması və digər istiqamətlərdə tədbirlərin görülməsi nəzərdə tutulub.

Dövlət proqramında xüsusi olaraq qeyd edilir ki, 2015-ci ilədək dənli bitkilərin əkin sahələrini 38 min hektara çatdırmalı, 150 min ton dənli bitkilər istehsal edilməlidir. Ət istehsalı 25 min tona, süd və süd məhsulları istehsalı 100 min tona, sənaye üsulu ilə quş əti istehsalı 3 min tona, yumurta istehsalı isə 70 milyon ədədə çatdırılmalıdır.

Cari ilin birinci yarısında da əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət proqramının icrası istiqamətində kənd təsərrüfatı sektoruna güzəştli kreditlər verilib, aqrolizinq xidmətlərinin göstərilməsi və digər dövlət dəstəyi tədbirləri davam etdirilib. Quşçuluq, heyvandarlıq, taxılçılıq, üzümçülük təsərrüfatları, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması, emalı və satışı kompleksləri, su təminatı və meliorativ tədbirlər görülüb, bir sıra ərzaq məhsulları üzrə daxili istehsal artıb, mövsümlə əlaqədar istehlak qiymətləri kəskin dəyişməyib və bu sahədə sabitliyə nail olunub.

Muxtar respublikada taxılçılıq xüsusi önəm verilən sahələrdən biridir. Tələbatın daxili imkanlar hesabına ödənilməsi əsas tutularaq taxıl əkini sahələri ilbəil genişləndirilir. Bu səbəbdəndir ki, 2014-cü ilin məhsulu üçün 35 min 749,7 hektar sahədə taxıl əkilib. Bu sahələrin 26 min 274,1 hektarını buğda, 9475,6 hektarını isə arpa təşkil edib. Torpaq mülkiyyətçiləri əkin sahələrində aqrotexniki tədbirləri vaxtında həyata keçirdiklərinə görə zəmilərdən 103 min 70 ton məhsul əldə ediblər. Taxıl istehsalı ilə yanaşı, bu strateji məhsulun ehtiyatının yaradılması da diqqətdə saxlanılıb, ümumi tutumu 9 min ton olan üç yeni bunker istifadəyə verilib. Bununla da, muxtar respublikada taxılı uzun müddətə saxlamağa imkan verən anbarın həcmi 18 min tondan 27 min tona çatdırılıb. Haliyədə muxtar respublikada 17 taxıl emalı müəssisəsi fəaliyyət göstərməkdədir.

Aqrar sektorun inkişafında mühüm vəzifələrdən biri soyuducu anbarların yaradılması, mövsümi tələbatdan artıq məhsulların bu anbarlara tədarükü və əhaliyə ucuz qiymətlərlə satışından ibarətdir. Çünki bu anbarlar bir tərəfdən istehsal olunan məhsulların satışı ilə əlaqədar meydana çıxan problemləri aradan qaldırmaqla meyvə-tərəvəz məhsullarının yetişdirilməsinə marağı artırırsa, digər tərəfdən əhalinin il boyu keyfiyyətli yerli məhsullarla təminatına imkan verir. Hazırda muxtar respublikada ümumi tutumu 12 min 150 ton olan 17 hüquqi və fiziki şəxsə məxsus 19 soyuducu anbar fəaliyyət göstərir. Tutumu 5370 ton olan digər 10 soyuducu anbar isə meyvə-tərəvəz məhsullarının tədarükü və saxlanması üzrə ixtisaslaşıb. Bu anbarlara mövsüm ərzində 6228,75 ton məhsul yığılıb. Belə ki, 4852,28 ton kartof, 504,82 ton soğan, 618,50 ton alma və digər kənd təsərrüfatı məhsulları tədarük olunub. Bu məhsulların keyfiyyəti də diqqət mərkəzində saxlanılıb, "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin laboratoriyası tərəfindən soyuducu anbarlara gətirilən və burada saxlanılan məhsullardan vaxtaşırı nümunələr götürülərək keyfiyyət göstəriciləri təhlil edilib, onların normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyənləşdirilib.

Muxtar respublikada sahibkarlığın yeni mərhələyə qədəm qoyması nəticəsində ənənəvi fəaliyyət sahələrinə yeni innovasiyaların tətbiqi də genişlənir. Belə gəlirli sahələrdən biri də istixana kompleksləridir. Bu sahəyə göstərilən diqqət və qayğı nəticəsində cari ilin ilk altı ayı ərzində tərəvəz istixanası üzrə 1 layihənin maliyyələşdirilməsinə 30 min manat güzəştli kredit verilib. Qeyd edək ki, bu gün muxtar respublikada tərəvəz yetişdirən istixana komplekslərinin sayı 12-yə, ümumi sahəsi isə 52 min 316 kvadratmetrə çatmışdır. Həmçinin Sahibkarlığa Kömək Fondu tərəfindən limon istixanası üzrə ötən ildən davamlı olmaqla, 1 layihənin maliyyələşdirilməsinə 20 min manat kredit verilib.

Ərzaq təhlükəsizliyinin təminatı daxili istehsal və emal sahələrinin inkişafını sürətləndirməklə yanaşı, rəqabətqabiliyyətli məhsulların istehsalını da stimullaşdırır. Bu baxımdan dövlətin əsas hədəflərindən biri də ölkədə sahibkarlığın inkişaf etdirilməsi olub. Çünki kiçik və orta sahibkarlığın inkişafı həm də dövlətin iqtisadi sabitliyinin əsas şərtlərindən biridir. Buna görə də muxtar respublikamızda sahibkarlığın inkişaf etdirilməsi üçün əlverişli biznes mühiti yaradılıb. Ötən illər ərzində sahibkarlığın inkişafına ayrılan vəsaitin həcminin ilbəil artırılması bir daha göstərir ki, sözügedən sahə daim dövlətin diqqət mərkəzindədir.

Həyata keçirilən layihələr istiqamətində əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı əsas götürülüb, bu təminatda başlıca rol oynayan kənd təsərrüfatında 2 yeni layihə olmaqla, 5 layihənin maliyyələşdirilməsinə 105 min manat yönəldilib. Əhalinin heyvandarlıq məhsulları ilə etibarlı təminatı üçün kənd təsərrüfatının vacib sahəsi olan heyvandarlığa xüsusi diqqət yetirilib, heyvanların baş sayında və heyvandarlıq məhsulları istehsalında artıma nail olunub. 2014-cü ilin birinci yarımili ərzində heyvandarlığın inkişafı üçün Sahibkarlığa Kömək Fondu tərəfindən 1 yeni layihə olmaqla, 2 layihənin maliyyələşdirilməsinə 50 min manat kredit verilib.

Muxtar respublika əhalisinin quş əti və yumurtaya olan tələbatının ödənilməsində quşçuluq təsərrüfatlarının rolu böyükdür. Daxili bazarda quş əti və yumurtaya olan tələbatın tam şəkildə yerli istehsal hesabına ödənilməsini təmin etmək istiqamətində bəhs olunan dövrdə ötən ildən davamlı olmaqla, 1 layihənin maliyyələşdirilməsinə 5 min manat dövlət maliyyə dəstəyi göstərilib.

Dövlət proqramının icrası istiqamətində ərzaq məhsullarına olan tələbatın daha dolğun və yerli istehsal hesabına ödənilməsində dövlət maliyyə dəstəyi göstərilmiş 220 heyvandarlıq, 59 ətlik və yumurtalıq istiqamətində quşçuluq, 9 balıqçılıq, 94 arıçılıq, 68 bağçılıq və üzümçülük təsərrüfatı mühüm rol oynayır.

Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün ölkədə səmərəli istehsal və satış infrastrukturunun yaradılması, ərzaq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi sahəsi üzrə də əsaslı islahatlar reallaşdırılıb.

***Göründüyü kimi, muxtar respublikada ərzaq məhsullarının istehsalının artırılması, əhalinin təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi, sahibkarlıq mühitinin yaxşılaşdırılması və digər istiqamətlərdə tədbirlər həyata keçirilib, səmərəli istehsal və satış infrastrukturunun yaradılması, ərzaq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi sahəsi üzrə əsaslı islahatlar reallaşdırılıb.***

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti*

# Dövlət Sosial Müdafiə Fondu tərəfindən hesabatların (bəyannamələrin) elektron qəbuluna başlanmışdır

***Ölkə Prezidenti cənab İlham Əliyevin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da informasiya və kommunikasiya texnologiyaları respublikanın davamlı və dayanıqlı inkişafının təmin edilməsi, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir.***

Ölkədə "elektron hökumət"in formalaşdırılmasına ciddi diqqət yetirilir və dövlət-vətəndaş münasibətlərinin informasiya texnologiyaları vasitələrindən istifadə etməklə sadələşdirilməsi, şəffaflaşdırılması bürokratik əngəllərin qarşısının alınmasına xidmət edir. Dövlət orqanları tərəfindən göstərilən elektron xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi, elektron xidmətlərin əlçatanlığının artırılması üçün ictimai çıxış məntəqələri şəbəkəsinin genişləndirilməsi, vətəndaşların "elektron hökumət" üzrə məlumatlılıq səviyyəsinin yüksəldilməsi adıçəkilən strategiyanın başlıca prinsiplərindəndir.

İnformasiya cəmiyyətinin əsas elementlərindən olan elektron dövlətin (e-dövlət) yaradılmasında əsas məqsəd internet və informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə dövlət idarələrinin vətəndaşlara göstərdikləri xidmətlərin səviyyəsini yüksəltmək, dövlət informasiya resurslarına girişi sadələşdirmək, cəmiyyətin bütün təbəqələrinin dövlət idarəçiliyində aktiv iştirakını təmin etmək və bununla da, idarəçiliyin səmərəliliyini artırmağa nail olmaqdır.

Bu əsasda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən 22 adda elektron xidmət göstərilməsi nəzərdə tutulmuşdur.

Fond informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə vətəndaşlara və təşkilatlara göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması və bu xidmətlərin təqdimedilmə müddətinin azaldılması məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Bura məcburi dövlət sosial sığortası sahəsində şərti yığımı təmin edəcək sığortaolunanların fərdi hesabları üzrə ödənilmiş sığorta haqları barədə məlumat bazasının yaradılması, bütün mövcud proseslərin, yəni həm məcburi dövlət sosial sığorta haqlarının toplanması və fərdi uçotunun qurulması, həm pensiyaların məbləğinin hesablanması, həm də onların ödənişi və ödənişinə nəzarətin avtomatlaşdırılması kimi tədbirlər daxildir.

Hazırda Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən elektron sənəd mübadiləsinin daha da təkmilləşdirilməsi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində idarəetmənin səmərəliliyinin artırılması istiqamətində tədbirlər davam etdirilməkdədir.

Elektron sənəd dövriyyəsinin tətbiqi sənədlərin hazırlanması və emalına sərf olunan əməyin və vaxtın azalmasına, idarəçilikdə qərarların qəbul edilməsinə, icra intizamının yüksəldilməsinə və nəzarət mexanizminin sadələşməsinə, əhaliyə xidmətin operativliyinə, dövlət və özünüidarəetmə orqanlarının fəaliyyəti haqqındakı informasiya və xidmətlərə əlyetərliliyi, eyni zamanda müəyyən iqtisadi səmərəlilik əldə etməyə imkan verir.

Qeyd edək ki, fondun informasiya idarəetmə sistemi üç hissədən – fərdi uçot və fərdi şəxsi hesablar sistemi; sığortaedənlərin mərkəzi qeydiyyat sistemi; sığortaedənlərin maliyyə hesabatlarının mərkəzi emal sistemindən ibarətdir. Sistemin əsas hissəsində müvafiq proseslərin yerinə yetirilməsini təmin edən proqram təminatı hazırlanıb və tam həcmdə istifadə olunur. Buraya fərdi uçot və fərdi şəxsi hesablar sistemi, sığortaedənlərin il ərzində hansı sığortaolunan üçün nə qədər məcburi dövlət sosial sığorta haqqı ödədiyi barədə məlumatların fondun rayon şöbələri vasitəsilə mərkəzə ötürülməsi və mərkəzdə bu maliyyə göstəricilərinin hər bir konkret sığortaolunanın fərdi hesabına daxil edilməsi aiddir. Həmçinin proses ardıcıllığına sığortaedənlərin maliyyə hesabatlarının mərkəzi emal sistemi, sığortaedənlərin məcburi dövlət sosial sığorta haqlarının ödənilməsinə dair rüblük hesabatlarının fondun rayon şöbələrində qəbulu və "Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi məsləhətçisinin avtomatlaşdırılmış iş yeri" sistemi vasitəsilə emal edilməsi, hesabatlar komplektinin alınması, bu emalın nəticələrinin mərkəzdə qəbul edilərək müxtəlif istiqamətlərdə təhlillər və yekun hesabatların alınması daxildir. Növbəti mərhələlər sığortaedən tərəfindən məcburi dövlət sosial sığortası üzrə hesabatların ("Bəyannamə 1", "Bəyannamə 2" formaları) və məcburi dövlət sosial sığorta haqları üzrə məlumatların ("Bəyannamə 3" forması) elektron sənəd formasında hazırlanması və fonda göndərilməsi; sığortaedənlər tərəfindən göndərilmiş elektron sənədlərin fondun müvafiq orqanları tərəfindən qəbulu və sığortaedənlərin məlumatlandırılması mərhələlərindən ibarətdir.

Bu əsasda fondun informasiya idarəetmə sisteminin tərkibində məcburi dövlət sosial sığortası üzrə hesabatların ("Bəyannamə 1", "Bəyannamə 2" formaları) və məcburi dövlət sosial sığorta haqları üzrə sığortaolunanlar haqqında məlumatların ("Bəyannamə 3" forması) elektron formada hazırlanması və internet üzərindən Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun müvafiq qurumlarına çatdırılması üçün yeni xidmət istifadəyə verilmişdir.

Hazırkı mərhələdə bu hesabatlar fondun yerli orqanlarında elektron poçt rejimində qəbul olunur. Hesabatları elektron poçt rejimində təqdim etmək üçün sığortaedənlər fondun yerli orqanları tərəfindən müvafiq proqram təminatı (B1 Editor, B2 Editor, B3 Editor) ilə təmin edilərək onlara elektron poçt ünvanı bildirilir. Proqram təminatı kompüterə yüklənməlidir. "Məcburi dövlət sosial sığortası üzrə hesabatların ("Bəyannamə 1", "Bəyannamə 2") və məcburi dövlət sosial sığorta haqqı üzrə sığortaolunanlar haqqında məlumatın ("Bəyannamə 3") elektron formada qəbulu" adlı proqramda sığortaedənlərə təklif olunan elektron xidmətlər, onlardan istifadə qaydaları öz əksini tapıb. Bura sığortaedənin Dövlət Sosial Müdafiə Fondu orqanlarında məcburi dövlət sosial sığortası üzrə rüblük (illik) hesabatının tərtibi üzrə proqram təminatından hüquqi və fiziki şəxslərin ("Bəyannamə 1") istifadə, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxsin Dövlət Sosial Müdafiə Fondu orqanlarında məcburi dövlət sosial sığortası üzrə rüblük (illik) hesabatının ("Bəyannamə 2") tərtibi üzrə proqram təminatından istifadə, məcburi dövlət sosial sığorta haqqı üzrə sığortaolunanlar haqqında məlumatın ("Bəyannamə 3") tərtibi üzrə proqram təminatından istifadə, hesabat və məlumatların Dövlət Sosial Müdafiə Fondunun yerli orqanlarına elektron formada təqdim edilməsi daxildir.

"Məcburi dövlət sosial sığortası üzrə hesabatların ("Bəyannamə 1", "Bəyannamə 2") və məcburi dövlət sosial sığorta haqqı üzrə sığortaolunanlar haqqında məlumatın ("Bəyannamə 3") elektron formada qəbulu" adlı elektron xidmət sığortaedənlərlə fondun orqanları arasında münasibətlərin sadələşdirilməsinə imkan yaradır, sığorta-pensiya sistemində şəffaflığın daha da artırılmasını təmin edir.

**İlham NƏCƏFOV**
*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun əməkdaşı*

*Həyatımıza bəzək, ömrümüzə sevinc olan körpələr gələcəyimiz, xoş sabahımızdır. Uşaq qədər məsum, təmiz, sevimli varlıq yoxdur. Onlar daim böyüklərin qayğısına ehtiyac duyurlar. Ona görə də uşaqlara, körpələrə diqqət hər birimizin borcudur. Bu, humanist və ədalətli cəmiyyətin yaranması üçün zəruri şərtlərdən biridir. Uşaqların böyük himayədarı olan ümummilli liderimiz Heydər Əliyev deyirdi:* ***"Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır".***

# Sərhəd bölgəsində gələcəyimiz olan uşaqlar şən və qayğısız böyüyürlər

Sevindirici haldır ki, ölkəmizdə uşaq və gənclərin hərtərəfli inkişafı, onların intellektual səviyyəsinin yüksəldilməsi, məktəbəqədər təlim və tərbiyənin səmərəli təşkili dövlətimizin xüsusi diqqət ayırdığı məsələlərdən biridir.

Muxtar respublikamızda da bu sahədə lazımi tədbirlər həyata keçirilir. Məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələri üçün yeni binalar tikilir, onların maddi-texniki bazası gücləndirilir, uşaqların əlverişli sosial-mənəvi mühitdə böyüməsi üçün hərtərəfli şərait yaradılır. Məqsəd ondan ibarətdir ki, uşaqlarımız yüksək səviyyədə tərbiyə olunsun, Azərbaycanın layiqli vətəndaşı kimi böyüsünlər. Ötən il oktyabrın 8-də Sədərək rayonunun Heydərabad qəsəbəsində uşaq bağçasının yeni binasının açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu amili xüsusi vurğulayaraq demişdir: ***"Hər bir ölkənin gələcəyini təmin etmək üçün, ilk növbədə, uşaqların hərtərəfli böyüməsinə ciddi diqqət yetirmək lazımdır. Bu mənada uşaqların məktəbəqədər tərbiyəsinin düzgün təşkili, onların hərtərəfli təhsil alması vacib məsələlərdəndir. Bu gün Heydərabad qəsəbəsində istifadəyə verilən uşaq bağçasında da gələcəyimiz olan uşaqlar tərbiyə olunacaqdır".***

Bağçanın binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Pianino və mebel avadanlıqları ilə təchiz edilmiş 144 yerlik bağçada 5 qrup fəaliyyət göstərir. Onlardan biri körpə, biri orta, ikisi böyük, biri isə məktəbəhazırlıq qruplarıdır. Uşaqların təlim-tərbiyəsi ilə 6 tərbiyəçi-müəllim və 5 dayə məşğul olur. Hər qrupun ayrıca oyun və yataq otaqları, mətbəxi var. Hər mərtəbədə olan oyun zalları yüksək zövqlə bəzədilmişdir. Bundan başqa, metodkabinet, valideyn və iş otaqları da təlim və tərbiyə prosesində valideyn-müəllim-uşaq münasibətlərinin hərtərəfli qurulmasında mühüm rol oynayır. Tədbirlər və şənliklər zalında isə əlamətdar günlərin qeyd olunması üçün yüksək şərait yaradılıb. Bağçada uşaqların tərbiyəsinə, sağlamlığına və qidalanmasına ciddi diqqət yetirilir.

Bağçada ayrıca mətbəx, ərzaq anbarı, işçilər üçün yeməkxana və yardımçı otaqlar da vardır. Binanın həyətindəki gözoxşayan gülkarlıq, oyun konstruksiyaları, istirahət guşələri də uşaqlar üçündür. Bina fərdi qazanxana vasitəsilə qızdırılır; daimi olaraq isti və soyuq suyu var.

Bağçanın müdiri Məryəm Quliyeva söhbət zamanı dedi:

– Əvvəllər uşaq bağçalarında tərbiyəçilərin bir qismi uşağı valideynlərdən təhvil alıb əyləndirən, günün sonunda isə onlara təhvil verən şəxslər rolunu oynayırdılar. Bu gün isə fərqlidir. Elə buna görə də hazırda uşaq bağçaları təlim statusu daşıdığına görə məktəbəqədər təhsil müəssisələri adlanır. Bu gün məktəbəqədər təhsil müəssisələrinin ixtiyarında olan proqramlar əsaslı şəkildə yeniləşdirilib, balacaların istifadəsinə müasir texniki vasitələr və yeni oyuncaqlar verilib. Bütün bunlar isə tərbiyə və təlim işinin çoxcəhətliliyindən xəbər verməklə yanaşı, tərbiyəçilərin işində də ciddi dönüş yarandığını ortaya qoyur. Bu



gün bizim qarşımızda duran əsas vəzifə yaddaşyönümlü təhsildən şəxsiyyətyönümlü təhsilə keçməklə vətənpərvər, ailəsi və dövləti üçün faydalı olmağı bacaran məsuliyyətli vətəndaş yetişdirməkdən ibarətdir. Fəaliyyətə başladığımız gündən işimizi bu istiqamətdə qurmuşuq.

Öncə onu deyim ki, kollektivimiz uşaqlarla işləməyi çox sevir. Balacaların qəlbinə isə asanlıqla yol tapmaq olmaz. Bunun üçün uşaqları mütləq sevmək lazımdır. Uşaq qəlbi həssas olduğundan səmimi münasibəti dərhal hiss edir və qiymətləndirir.

Bu yaxınlarda məktəbəqədər hazırlıq qrupumuzun 25 nəfərini məktəbə yola saldıq. Onlar ilkin riyazi biliklərə, şifahi və yazılı nitq vərdişlərinə yiyələndilər, əlifba ilə tanış oldular. Məzunlarımız üçün yaddaqalan "Əlvida bağça, salam məktəb" adlı ədəbi-bədii kompozisiya keçirildi. Həmin gün göstərilən səhnəciklər çox maraqlı idi. Tədbirdə riyaziyyatdan, oxudan nələr öyrəndiklərini uşaqlar böyük həvəslə nümayiş etdirdilər.

Müsahibim onu da bildirdi ki, uşaqların Heydərabad qəsəbəsindəki Heydər Parkına, rayon Tarix-Diyarşünaslıq Muzeyinə, Sədərək kəndindəki Şəhidlər Xiyabanına ziyarətləri təşkil olunur. Keçirilən tədbirlər uşaqlarda vətənpərvərlik şüurunun formalaşmasına təsir edir.

Tərbiyə ocağında öz işinin vurğunu olan, uşaqlara böyük qayğı və məhəbbətlə yanaşan, işini müasir təlim-tərbiyə üsulları ilə qurmağa çalışan tərbiyəçi-müəllimlər çalışırlar. Onlar məşğələlərdə fəal təlim üsullarından bacarıqla istifadə edirlər.

Bağçada tədbirlərin hazırlanıb həyata keçirilməsində qrup tərbiyəçiləri ilə yanaşı, musiqi tərbiyəçisi Nuridə Səfərovanın da əməyi var. Yeri gəlmişkən onu da deyim ki, onların birgə əməyi sayəsində istedadlı uşaqlarımız üzə çıxır, onların istedadları inkişaf etdirilir. Bunun üçün bağçada "İstedad" qrupu yaradılmışdır. Bura 25 nəfər istedadlı uşaq cəlb olunmuşdur.

Tərbiyəçi-müəllimlər valideynlərlə sıx əlaqə saxlayırlar. Valideynlər vaxtaşırı qruplarda olur, uşaqlarla iş prosesinə qoşulur, tərbiyəçilərlə birgə mövzuya uyğun vəsaitlər hazırlayırlar. Beləliklə, balacalar məktəb təliminə yüksək səviyyədə hazırlanırlar.

Sonda bağçanın balaca sakinləri ilə tanış oldum, onların bəziləri ilə söhbətləşdim. Uşaqlardan Fatimə Abdullazadənin ümummilli lider Heydər Əliyevə həsr olunmuş şeri xüsusi intonasiya ilə deməsi, Fərid Həsənlinin, Gülnar Ələkbərovanın maraqlı rəsmləri bizdə xoş təəssürat yaratdı.

M.Quliyeva onu da vurğuladı ki, bundan sonra kollektivimiz bağçada təlim-tərbiyə işlərinin keyfiyyətini daha da yüksəltməyə, uşaqlara səmərəli təhsil xidmətləri göstərməyə, onlara bağça yaşından doğma Vətənə məhəbbət hisslərinin daha dərindən aşılanmasına, əqli tərbiyə işini möhkəmləndirməyə çalışacaqdır.

Uşaqların bağçaya cəlbi və məktəb təliminə hazırlanması da diqqətimizdədir. Onu da deyim ki, uşaq kontingenti sarıdan heç bir problemimiz yoxdur.

Öyrəndik ki, Sədərək kəndindəki 65 yerlik bağçada da uşaqların təlim-tərbiyəsinin günün tələbləri səviyyəsində təşkili üçün hərtərəfli şərait var. Təlim prosesində əyani vasitələrdən istifadə edilərək uşaqlar gündəlik keçirilən nitq inkişafı, bədii ədəbiyyatla tanışlıq, riyaziyyat, rəsm, idman və musiqi məşğələlərində yaş səviyyələrinə uyğun bilik, bacarıq və vərdişlərə yiyələnirlər. Bu bağça da yeni binada yerləşir.

*Bəli, sərhəd bölgəsi Sədərək rayonunda sabahımız, gələcəyimiz olan uşaqlar şən və qayğısız böyüyürlər.*

Cəfər ƏLİYEV

# Əyləncə və İstirahət Mərkəzində bir neçə saat...

***Əyləncə və İstirahət Mərkəzi. Son günlərdə bu gözəl məkan muxtar respublika sakinlərinin ən çox üz tutduqları ünvanlardan birinə çevrilib. "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"a əsasən, insanların istirahətinin səmərəli təşkili məqsədilə Naxçıvançay vadisində tikilən və ötən ay istifadəyə verilən bu mərkəzdə həm uşaqların, həm də böyüklərin istirahəti üçün hər cür şərait yaradılıb. Hər gün yüzlərlə insanın axışdığı bu məkanda olduq, vətəndaşların təəssüratlarını öyrənmək istədik.***



Əyləncə və İstirahət Mərkəzinə gedərkən muxtar respublikada əhalinin rifahının yaxşılaşdırılması ilə yanaşı, insanların istirahətlərinin səmərəli təşkili istiqamətində həyata keçirilən tədbirlər haqqında düşünürdüm. Son illərə, daha doğrusu, 17-18 il əvvələ qədər şəhərdə "Böyük bağ" deyilən istirahət guşəsindən başqa, yaşıllığı olan belə məkan tapa bilməzdik. Bu günsə az qala hər yaşayış binasının önündə bir park, istirahət guşəsi yaradılıb. Adıçəkilən mərkəzin istifadəyə verilməsi isə muxtar respublika sakinlərinin böyük sevincinə səbəb olub. Bu sevincdən daha çox pay alan isə gələcəyimiz olan uşaqlardır. Düzdür, şəhərimizdə uşaq istirahət mərkəzi fəaliyyət göstərir. Ancaq həmin ünvan uşaqların istirahəti üçün tam yetərli deyildi. Daha dəqiq desək, ərazi cəhətdən buraya gələn uşaqlar üçün darısqal idi. Əyləncə və İstirahət Mərkəzinin açılış mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu məqama toxunaraq demişdir: ***"Naxçıvan şəhərində bir uşaq istirahət mərkəzinin fəaliyyət göstərməsi şəhər sakinlərinin tələbatını tam ödəmirdi. Ona görə də muxtar respublikanın paytaxtında yeni Əyləncə və İstirahət Mərkəzinin yaradılmasına ehtiyac yarandı. Bu gün istifadəyə verilən Əyləncə və İstirahət Mərkəzinin yerləşdiyi ərazi vaxtilə müxtəlif məqsədlər üçün istifadə edilmiş və sonradan yararsız vəziyyətə düşmüşdü. Lakin yaradılan şərait və çəkilən zəhmət nəticəsində ərazi bu gün Naxçıvan şəhərinin ən abad yerlərindən birinə çevrilmişdir. Əyləncə və İstirahət Mərkəzində müasir avadanlıqlar qurulmuş, təhlükəsizlik təmin edilmişdir. Bu da uşaqların və böyüklərin istirahətlərinin, eləcə də asudə vaxtlarının səmərəli keçirilməsinə imkan verəcəkdir".***

Budur, Əyləncə və İstirahət Mərkəzindəyəm. Uşaqlar valideynlərinin əlindən tutaraq həyəcanla burada quraşdırılan attraksionlara doğru tələsirlər. Hər tərəfi uşaq gülüşü, uşaq təbəssümü bürüyüb. Bunları müşahidə etdikcə düşünürəm ki, mərkəzdə yaradılan şərait uşaqların istirahətinin səmərəli təşkili ilə yanaşı, həm də onların intellektual hazırlıq səviyyələrinin yüksəldilməsi və əqli inkişafı baxımından əhəmiyyətlidir.

38 min kvadratmetr sahəni əhatə edən mərkəzdə 190-a yaxın işçi heyət əhaliyə xidmət göstərir. Mərkəzdə ikimərtəbəli bina inşa edilib. Binanın birinci mərtəbəsində geyim mağazası, 2 kafe və sahəsi 1230 kvadratmetr olan örtülü oyun salonu vardır. Geyim mağazasında dünyanın məşhur geyim brendləri olan 14 firmanın məhsulları alıcılara təklif olunur. Kişi, qadın və uşaq bölmələrindən ibarət olan mağazada müştərilərə yüksək xidmət göstərilir. Oyun salonunda 25 aparat quraşdırılıb, uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün lazımi şərait yaradılıb. Mərkəzin həyətində böyüklərin istirahəti üçün 1 kafe fəaliyyət göstərir. Həmçinin burada 1 fəvvarə və 4 hovuz da istifadəyə verilib, kukla teatrının tamaşalarının göstərilməsi üçün səhnə yaradılıb.

Əyləncə və İstirahət Mərkəzinin həyətində 33 metr hündürlüyündə 24 kabinəli 144 yerlik karusel, 8 yerlik 120 dərəcəli yelləncək, 32 yerlik uşaq maşını, qatar və uşaqlar üçün nəzərdə tutulmuş 4 idman qurğusu vardır. Parkın mərkəzində azyaşlı uşaqlar üçün qurulan müxtəlif fiqurlardan ibarət çoxelementli qurğular uşaqlara əsl bayram ovqatı bəxş edir. Mərkəzin həyətində divarlara vurulmuş nağıl qəhrəmanlarının fotoları uşaqları nağıllar aləminə aparır.



Övladlarının sevincini seyr edən valideynlərin sevinci birə-beş qat artır. Onlar yaradılmış belə şəraitə görə minnətdarlıq etməyi də unutmurlar. Mərkəzdə dövrə vuran qatar uşaqların ən çox sevdikləri əyləncə vasitələri sırasındadır. Axşam saatlarında səslənən musiqilər insanlara xoş ovqat bəxş edir, mərkəzdə istirahət edən insanların əhval-ruhiyyəsinə xüsusi rəng qatır. Bir məqamı da vurğulamaq lazımdır ki, mərkəz qış aylarında da fəaliyyət göstərəcək.

Skamyada ömrünün ahıl çağlarını yaşayan iki nəfərə yaxınlaşdım. Onlardan biri – Ağakişi baba deyir: – Buranın havası mənə xoş təsir bağışlayır. Demək olar ki, hər gün gəlirəm. Bilirsiniz, muxtar respublikamızda qış sərt soyuqlarla müşayiət olunduğu kimi, yay fəsli isə isti havaların müşayiəti ilə keçir. Belə olan vəziyyətdə muxtar respublika sakinləri nisbətən sərin yerlərə üz tuturlar. Odur ki, yay dövründə parkların, istirahət guşələrinin çox olması sakinləri ürəkdən sevindirir. Bura körpə fidanlara dünyaya sığmayan sevinc bəxş edir. Bu isə məni ruhən rahatladır. Bir sözlə, mən burada mənəvi rahatlıq tapıram.

Şəhər sakinlərindən Cahan Əsədovaya yaxınlaşırıq. Uşaq maşınlarında əylənən nəvələrini Cahan xanım həvəslə izləyir. Onunla bir neçə dəqiqə həmsöhbət oluruq. O deyir:

– Bu gün ilk dəfədir, buraya gəlirik. Nəvələrim sevinclə əylənirlər. Naxçıvanda belə istirahət mərkəzinin yaradılması bizi çox sevindirir. Ən çox da ona görə sevinirik ki, bu mərkəz qışda da fəaliyyət göstərəcək. Çünki muxtar respublikada qış aylarında fəaliyyət göstərən belə istirahət mərkəzi yox idi.

Başqa bir şəhər sakini Vahid İsmayılov:

– Bu gün muxtar respublikada əhalinin rifahı günü-gündən daha da yaxşılaşır. Bu da insanların istirahətinin səmərəli təşkilinə tələbatı artırır. Bunun üçün də muxtar respublikamızda belə istirahət mərkəzlərinin yaradılması böyük əhəmiyyət daşıyır. Belə mərkəzin yaradılmasına görə dövlətimizə minnətdarıq.

**Əyləncə və İstirahət Mərkəzindən ayrılanda saatlar gecə 10-u göstərirdi. Amma buna baxmayaraq, mərkəzdə qələbəlik getdikcə artırdı. Doyunca əylənən uşaqlar... Böyüklərin üzlərində xoş təbəssüm. Bu təbəssüm muxtar respublikada yaradılan sakitlik, əmin-amanlıq və xoş günlərdən xəbər verirdi...**

Sara ƏZİMOVA





## Döyüş əmri ver mənə...

**Bu gün gur səslə deyir anam Azərbaycanım:**
**Döyüş əmri ver mənə, Ali Baş Komandanım!**

**Səbrimin də bir həddi, bir sərhədi var axı,**
**Dözmür ürək, partlayır sinəmdə mərmi kimi.**
**Yolum oddan-alovdan, yolum qandan keçsə də,**
**Məhv etmək istəyirəm o mənfur düşmənimi.**
**Bu ana torpağıma qoy qurban olsun canım,**
**Döyüş əmri ver mənə, Ali Baş Komandanım!**

**Doğma od-ocağından qaçqın, köçkün düşənlər,**
**Alışsın qəlbinizdə yurd eşqi çıraq-çıraq.**
**Babaların ruhu da incik düşübdü bizdən,**
**Qəlbdə Vətən eşqini daha da gur yandıraq.**
**Yolumuzu gözləyir Laçınım, Zəngilanım,**
**Döyüş əmri ver mənə, Ali Baş Komandanım!**

**Hər bir oğul bu yurdun vuran şah damarıdır,**
**Vətən yoxsa, biz nəyik? – Quru torpaq, quru daş...**
**Səngərlərdə qurd kimi marıqda dayanmasaq,**
**Bu yurda nə oğuluq, nə əsgər, nə vətəndaş!**
**Vətəndir canım-gözüm, odur şərəfim, şanım,**
**Döyüş əmri ver mənə, Ali Baş Komandanım!**

**Qana qandır bax bu gün mənim andım, şüarım,**
**Qanımı şərbət kimi içsin Vətən torpağı.**
**Bir milyon oğlu, qızı şəhid olsa da belə,**
**Dalğalansın Şuşamda Azərbaycan bayrağı.**
**Qələbədir son andım – odur dinim, imanım,**
**Döyüş əmri ver mənə, Ali Baş Komandanım!**

**Asim YADİGAR**

---

*Gəncliyimiz, gələcəyimiz*

## Gələcəyin hüquqşünasları

**Qəzetimizin ötən sayında yüksək bal toplayaraq Azərbaycan Tibb Universitetinə qəbul olunan gənclərimizi oxucularımızla tanış etdik. Bu dəfə isə gələcəyin hüquqşünasları haqqında məlumat verəcəyik. Həmin gənclər builki qəbul imtahanında yüksək bal toplayaraq Naxçıvan Dövlət Universitetinin "hüquqşünaslıq" ixtisasına qəbul olunublar. Həmin gəncləri redaksiyamıza dəvət etdik, təəssüratlarını öyrəndik.**



*Aynur CƏFƏROVA:* – 1997-ci ildə Naxçıvan şəhərində anadan olmuşam. Orta təhsilimi Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbdə almışam. 671 bal toplayaraq tələbə adını qazandım. Seçdiyim ixtisasın – "hüquqşünaslıq" ixtisasının tələbəsi olmaq ən böyük arzum olub. Valideynlərim ali təhsil almağımı çox istəyirdilər. İstədiyim ixtisasa qəbul olunduğum üçün valideynlərim çox sevinirlər. İndi mən daha çətin və şərəfli yola qədəm qoyuram. XXI əsr tələbəsi milli mentalitetimizə sadiq olmalı, əxlaqı ilə, davranışı ilə seçilməli, ictimaiyyət arasında dərin biliyi ilə nümunə olmalıdır. Bu günün tələbəsi sabahın qurucusu olmaq məsuliyyətini dərk edib müstəqil Azərbaycan Respublikasının çiçəklənməsi üçün üzərinə düşən vəzifəni şərəflə yerinə yetirməlidir. Bu keyfiyyətlərə malik bir gənc olmağa çalışacağam.



*Vilayət SEYİDOV:* – 2014-cü ildə Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbi "Gümüş" medalla bitirmişəm. Məzunu olduğum tam orta məktəb kollektivi mənə çox güvənirdi. "Gümüş" medal alanda düşünürdüm ki, hər şeydən əvvəl, müəllimlərimin mənə olan etimadını doğrultmalıyam. 632 bal topladığımı eşidəndə bu sevinci də ilk olaraq müəllimlərimlə bölüşdüm. Tələbə olacağım qarşıdakı illərdə də, ondan sonra da əsl azərbaycanlı olmağa, bu adı bütün ömrüm boyu uca tutmağa çalışacağam. Qəbul imtahanlarından sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikamızın ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüşü mənim üçün unudulmaz oldu. Ali Məclis Sədrinin bizə verdiyi dəyərli tövsiyələr gələcək təhsil həyatımda və peşəkar kadr kimi yetişməyimdə mənə mayak olacaq.

Bəli, o dövlət, o cəmiyyət güclüdür ki, onun gəncliyi xalqa sədaqətlidir, vətənpərvərdir, təhsillidir. Heç şübhə yoxdur ki, həmsöhbət olduğum bu gənclər Azərbaycanın adını, azərbaycanlı şərəfini daim uca tutacaq, bu ada layiq olacaqlar.

**S.ƏZİMOVA**

---

## Müəmmalı penalti "Araz-Naxçıvan"ı 3 xaldan etdi

**Topaz Premyer-Liqasına qələbə ilə başlayan "Araz-Naxçıvan" futbol komandası 2-ci turda "Qəbələ" futbol komandasının qonağı oldu. Çempionata öz oyun tərzi ilə rəng qatan muxtar respublika təmsilçisi bu matçda da sərgilədiyi futbolla hamının diqqətini üzərinə cəlb etməyi bacardı. Lakin komandamız ələ düşən imkanlardan yararlana bilmədi və hakimin müəmmalı penalti qərarı nəticəsində meydanı məğlub tərk etdi.**

Qəbələyə yollanarkən "Araz-Naxçıvan" futbol komandasının baş məşqçisi Əsgər Abdullayev oyunun çətin keçəcəyini, ancaq yetirmələrinin bu görüşə hazır olduqlarını bildirmişdi. Əslində, oyunun gedişatı da göstərdi ki, "Araz-Naxçıvan" futbolçuları "ev" və ya səfər matçlarında rəqibdən çəkinmir və fərqli oyuna üstünlük verirlər. Məhz "Qəbələ" ilə görüşdə bu, özünü açıq şəkildə büruzə verdi. Daha çox hücum futbolu oynayan komandamızın heyətində xüsusilə cinah yarımmüdafiəçiləri diqqəti daha çox cəlb edirdilər. Baş məşqçi kapitan sarğısını həvalə etdiyi Kamal Bayramova qapıda güvənməklə bir daha səhv addım atmadığını göstərmiş oldu. Müdafiə xəttində Ruslan-Azər-Ruslan-Emin dördlüsü rəqibin sürətli hücumların qarşısını almaqda heç də çətinlik çəkmədilər. Mərkəz xəttində topların "paylanmasına" nəzarət edən Tərlan Xəlilova Ramal Hüseynov və Budaq Nəsirov yardımçı olurdular. Hücum xəttində isə David Canıyevlə yanaşı, Bəxtiyar Soltanov və Elmin Çobanovun reydləri rəqib müdafiəçilər üçün əsl başağrısı olmuşdu.

Rəqibə gəlincə qeyd edək ki, "Qəbələ" futbol komandası – ötən mövsüm Premyer-Liqanın bürünc mükafatçısı, eyni zamanda Azərbaycan Kubokunun finalçısı heyətini legioner futbolçularla gücləndirmişdi. Daha çox atletik futbol oynayan və cinahlardan istifadə edən "Qəbələ"nin standart vəziyyətlərdəki təhlükəli oyununu komandamızın baş məşqçisi Ə.Abdullayev öncədən sezmişdi.

Oyun "Araz-Naxçıvan" üçün yaxşı başladı. Topa nəzarəti öz əlinə keçirən muxtar respublika təmsilçisi 12-ci dəqiqədə rəqib azarkeşləri susdura bilərdi. Sağ cinahdan başlanan sürətli hücumu Bəxtiyar Soltanov davam etdirdi və o, cərimə meydançasında qərarlaşan Davidə ideal ötürmə verdi. Sonuncunun bir qədər qeyri-dəqiqliyi hesabın açılmasına imkan vermədi. Buna cavab olaraq "Qəbələ" cərimə zərbəsindən qapımız önündə təhlükəli vəziyyət yaratdı. Lakin Kamal Bayramovun mükəmməl reaksiyası topun qapı xəttindən keçməsinə imkan vermədi. Matçın 19-cü dəqiqəsində isə hakimin müəmmalı qərarı hamını təəccübləndirdi. Belə ki, qapımız önünə edilən asmadan sonra rəqib futbolçular hava mübarizəsində Ramal Hüseynova qarşı kobud oynasalar da, referi ələ dəyməyən topu penalti qərarı ilə nəticələndirdi. Etirazlara baxmayaraq, oyunun hakimi Rəhim Həsənovun qərarı dəyişməz oldu və o, 11 metrlik ağ nöqtəni göstərdi. Topa yaxınlaşan Cavid Hüseynov cari mövsümdə "Qəbələ"nin ilk qoluna imza atdı.

İkinci hissə, demək olar ki, "Araz-Naxçıvan"ın ərazi üstünlüyü ilə keçdi. Xüsusilə cinahlardan başlayan hücumlar rəqib qapıçısına həyəcanlı anlar yaşadırdı. Epizodların birində Davidin başla zərbəsini qapıçı son anda ram edə bildi. Ardınca meydana sonradan daxil olan Eşqin Quliyev və Qərib İbrahimovun uzaqdan zərbələrində bir qədər dəqiqlik çatmadı. Rəqibin hücumları zamanı isə qapıçımızın qurtarışları və komandamızın yaratdığı təhlükəli vəziyyətlər qolla yekunlaşmayınca tablodakı hesab dəyişmədi.

Bununla, "Araz-Naxçıvan" futbol komandası cari mövsümdə ilk məğlubiyyəti ilə üzləşdi. Buna baxmayaraq, komandamız turnir cədvəlindəki mövqeyini itirmədi və 3-cü pillədəki yerini qorudu.

**Ceyhun MƏMMƏDOV**

---

## "Naxçıvan muxtariyyəti naxçıvanlı şair və yazıçıların yaradıcılığında"

Ordubad Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində bu mövzuda tədbir keçirilib. Tədbiri giriş sözü ilə rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Azər Əliyev açıb. Bildirilib ki, Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycanın qədim bölgəsi olan Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır", – sözlərini xatırladan A.Əliyev bildirib ki, Naxçıvanın muxtariyyəti bu qədim diyarda yaşayıb-yaradan qələm sahiblərinin müntəzəm olaraq müraciət etdikləri mövzuya çevrilib. Həm sovetlər dönəmində, həm də müstəqillik illərində bu mövzuda gözəl əsərlər yaradılıb. Hüseyn Razi, Əliyar Yusifli, Hüseyn İbrahimov, Elman Həbib, Muxtar Qasımzadə, Asim Yadigar və başqalarının yaradıcılığına nəzər salsaq, bunun bir daha şahidi olarıq.

"Naxçıvan muxtariyyəti naxçıvanlı şair və yazıçıların yaradıcılığında" mövzusunda çıxış edən rayon Təhsil Şöbəsinin əməkdaşı Əyyar Səfərov bildirib ki, ədəbiyyatın müxtəlif janrlarında Naxçıvanın muxtariyyəti tərənnüm olunub. Bu mövzuda qələmini sınayan müəlliflər muxtariyyətin bu qədim diyara bəxş etdiyi nailiyyətləri təkcə zaman və məkan prizmasından deyil, həm də tarixi gerçəkliklərdən oxucuya çatdıra biliblər. Bu gün ədəbiyyatımızın mirasına çevrilən həmin əsərlər həm də öz bədii ideya istiqaməti ilə diqqəti çəkir.

**Sona MİRZƏYEVA**

---

### Allah rəhmət eləsin

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadəyə, qardaşı
**SİYASƏT KƏRİMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ə.Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın Nevrologiya şöbəsinin kollektivi iş yoldaşları Yazgül və Yəmən Rzayevalara, əzizləri
**YAQUB RZAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin kollektivi iş yoldaşları Gülnarə Abbasovaya, əzizi
**VƏLİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Şərq qapısı" qəzetinin kollektivi Hacı Qadir Qədirzadəyə, qardaşı
**SİYASƏTİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru Fəxrəddin Səfərli və institutun kollektivi Hacı Qadir Qədirzadəyə, qardaşı
**SİYASƏTİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbov və institutun əməkdaşları iş yoldaşları Pərviz Fətullayevə, əzizi
**ƏFRUZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbov və institutun əməkdaşları Hacı Qadir Qədirzadəyə, qardaşı
**SİYASƏTİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı Akif Mərdanlı dekan müavini Şəmil Mahmudova, qayınatası
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**ŞƏRQ qapısı**
Baş redaktorun müavini: SƏYYAR MƏMMƏDOV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 697